# AZƏRBAYCAN CÜDO FEDERASİYASININ “PARİS OLİMPİYA OYUNLARI 2024” ÜÇÜN SEÇİM PROSEDURU SƏNƏDİ

PARIS 2024



VERSİYA: 15 İYUL 2022

Azərbaycan
Cüdo
Federasiyası

**Azərbaycan Cüdo Federasiyasının**
**"Paris Olimpiya Oyunları 2024" üçün**
**seçim proseduru sənədi**

## Giriş

1. Azərbaycanı 2024-cü ildə Parisdə keçiriləcək Olimpiya Oyunlarında (OO 2024) təmsil edəcək cüdo idmançılarının seçimi **bu sənəddə** göstərilən meyarlara uyğun aparılacaq.

2. Azərbaycan üçün Olimpiya Oyunlarına seçimdə yekun qərar Milli Olimpiya Komitəsinə aiddir (MOK). Buna görə də seçim meyarlarına nail olmaq seçim və ya avtomatik nominasiya deyil, "namizədlik üçün uyğunluğu" ifadə edir.

3. Bu sənəd Beynəlxalq Olimpiya Komitəsinin "Qualification System – Games of the XXXIII Olympiad – Paris 2024 – International Judo Federation (IJF) – Judo. Version 1"[1] sənədi ilə əlaqəli şəkildə nəzər alınmalıdır.

## Uyğunluq

1. Bütün idmançılar hazırda qüvvədə olan Olimpiya Xartiyasının bütün müddəalarına, o cümlədən 41-ci Qaydanın (iştirakçıların vətəndaşlığı) və 43-cü Qaydanın (Ümumdünya Antidopinq Məcəlləsi və Yarışların Manipulyasiyasının Qarşısının Alınması üzrə Olimpiya Hərəkatı Məcəlləsi) tələbləri də daxil olmaqla bütün tələblərə uyğun olmalı və bu tələblərə riayət və hörmət etməlidirlər.

2. Yalnız Olimpiya Xartiyasına, Ümumdünya Antidopinq Məcəlləsinə və Yarışların Manipulyasiyasının Qarşısının Alınması üzrə Olimpiya Hərəkatı Məcəlləsinə, o cümlədən Beynəlxalq Olimpiya Komitəsi (IOC) tərəfindən müəyyən edilmiş iştirak şərtlərinə, həmçinin Beynəlxalq Cüdo Federasiyasının (IJF) qaydalarına hörmət edən və onlara əməl edən idmançılar Paris 2024 Olimpiya Oyunlarında iştirak edə bilərlər.

3. Bütün hallarda idmançılar MOK, IOC, IJF və / və ya Azərbaycan Cüdo Federasiyası (AJF) tərəfindən müəyyən edilmiş və ya ediləcək bütün uyğunluq tələblərinə (məsələn, vətəndaşlıq (Azərbaycan pasportuna malik olmaq), antidpoinq tələbləri və s.) cavab verməlidirlər.

4. Oyunlarda iştirak edən bütün idmançılar 31 dekabr 2009-cu il tarixində və ya ondan əvvəl anadan olmalıdırlar.

---

[1] https://78884ca60822a34fb0e6-082b8fd5551e97bc65e327988b444396.ssl.cf3.rackcdn.com/up/2022/04/Paris_Olympic_Games_2024_Judo_-1649757842.pdf

**Seçim orqanları**

AJF-in dörd seçim orqanı olacaqdır: Kişi İdmançıların Seçimi Komissiyası, Qadın İdmançıların Seçimi Komissiyası, Olimpiya Oyunlarına İdmançıların Seçimi Komitəsi və Apellyasiya Şurası.

Kişi İdmançıların Seçimi Komissiyasının tərkibi aşağıdakı kimi müəyyən edilir:

1. Performans direktor.
2. Kişilərdən ibarət milli yığmanın baş məşqçisi.

Qadın İdmançıların Seçimi Komissiyasının tərkibi aşağıdakı kimi müəyyən edilir:

1. Performans direktor.
2. Qadınlardan ibarət milli yığmanın baş məşqçisi.

Olimpiya Oyunlarına İdmançıların Seçimi Komitəsinin tərkibi aşağıdakı kimi müəyyən edilir:

1. Vitse-Prezident (Elnur Məmmədli).
2. Prezidentin müşaviri (Natiq Bağırov).
3. Performans direktor.

Apellyasiya Şurasının tərkibi aşağıdakı kimi müəyyən edilir:

1. Prezident.
2. Vitse-Prezident (Rövşən Rüstəmov).
3. Baş katib.

**Seçim mərhələləri**

OO 2024-də uğur şansını artırmaq məqsədiylə AJF iki mərhələli seçim prosesini həyata keçirəcək:

1. a. Birinci seçim mərhələsi – 14 fevral 2024-cü il
   b. Olimpiya Oyunlarına İdmançıların Seçimi Komitəsi.

2. a. İkinci seçim mərhələsi – 25 iyun 2024-cü il tarixindən sonra (Olimpiya Təsnifat dövrünün IJF Dünya Reytinq Siyahısının son halı dərc edildikdən və IJF tərəfindən Azərbaycan tərəfindən əldə edilmiş kvota yerlərinin MOK-ə yazılı şəkildə bildirdikdə).
   b. Olimpiya Oyunlarına İdmançıların Seçimi Komitəsi.

Hər hansı turnir ləğv edilərsə və ya gecikərsə, Seçim Komissiyaları, seçim proseduru sənədini uyğunlaşdırmaq hüququna malikdir.

**Birinci seçim mərhələsi**

12 fevral 2024-cü il tarixində Performans Direktor və Baş Məşqçilər OO 2024-də iştirak üçün namizəd olan idmançılar haqqında fərdi fikirlərini dinləmək üçün Azərbaycanın cüdo üzrə kişilərdən və qadınlardan ibarət milli yığmalarının bütün məşqçiləri ilə görüşəcəklər.

14 fevral 2024-cü il tarixində Kişi İdmançıların Seçimi Komissiyası və Qadın İdmançıların Seçimi Komissiyası aşağıdakı üç meyar nəzərə alınmaqla Olimpiya Oyunlarına İdmançıların Seçimi Komitəsinə müvafiq namizəd idmançıların təqdim edilməsi üçün iclas keçirəcəklər:

1. İdmançıların Paris Böyük Dəbilqə 2024 turnirindən sonra və ya ən gec 14 fevral 2024-cü il tarixinə IJF-in Olimpiya Təsnifat Dövrü üçün Olimpiya Dünya Reytinq Siyahısında (təmizlənmiş) yeri. 25 iyun 2024-cü il tarixində dərc ediləcək yekun olimpiya reytinq siyahısında idmançının ilk 8-likdə yer alacağının real olması Seçim Komissiyaları tərəfindən nəzərə alınacaqdır.

2. IJF Dünya Turunun aşağıdakı yarışlarında idmançıların nəticələri:

    - Paris Böyük Dəbilqə 2023
    - Avropa Çempionatı (böyüklər) 2023
    - Dünya Çempionatı (böyüklər) 2023
    - Bakı Böyük Dəbilqə 2023
    - IJF Dünya Ustaları 2023
    - Paris Böyük Dəbilqə 2024 (Əgər bu yarış 2024-cü ilin fevral ayının ilk həftəsində təşkil edilməsə gecikmiş hesab ediləcəkdir).

    Seçim Komissiyaları ehtiyac olarsa bu siyahıya daha bir yarışı əlavə edə bilərlər. Belə halda, Seçim Komissiyası bu barədə Paris Böyük Dəbilqə 2024 yarışından dərhal sonra bütün maraqlı tərəflərə məlumat verəcəkdir.

3. Hansı idmançıların OO 2024-də medal qazanmaq şansının daha yüksək olduğu barədə Seçim Komissiyalarının ehtimalı.

Seçim Komissiyaları hər bir çəki kateqoriyası üçün namizədləri müəyyən etmək və ya seçim prosesini davam etdirmək barədə qərar verə bilər.

OO 2024-ə birbaşa kvalifikasiya əldə edə biləcək iki və ya daha çox idmançı varsa (IJF-in Olimpiya Təsnifat Dövrü üçün Olimpiya Dünya Reytinq Siyahısında təsnifat dövrünü sonu üçün ilk 17-likdə qərarlaşa biləcək idmançılar) bir nominasiya və bir ehtiyat idmançı elan ediləcək. Nominasiya edilən idmançı hər hansı bir səbəbdən Azərbaycanın cüdo milli yığma komandası üçün ən yaxşı çıxışını göstərmək imkanına malik olmadqıda və ya bu imkanı itirdikdə, Seçim Komissiyası ehtiyat idmançını seçmə hüququna malikdir.

Birinci seçim mərhələsində nominasiyalar müəyyən edilməyən çəki dərəcələri üçün, Seçim Komissiyaları idmançılara IJF-in Olimpiya Təsnifat Dövrü üçün Olimpiya Dünya Reytinq Siyahısında ikinci seçim mərhələsindən əvvəl ilk 8-likdə qərarlaşmaları üçün ən yaxşı şansı verəcək planı müəyyən edəcəkdir.

**İkinci seçim mərhələsi**

IJF 25 iyun 2024-cü il tarixinə qədər özünün www.ijf.org saytında Olimpiya Təsnifat Dövrü üçün Olimpiya Dünya Reytinq Siyahısını dərc edəcək.

IJF əldə eedilən kvota yerlərini MOK-ə yazılı şəkildə təsdiq edəcək. Bundan sonra MOK 2 iyul 2024-cü ilə qədər 5 (beş) iş günü ərzində istifadə etmək istədiyi kvota yerləri barədə IJF-ə müvafiq sənəd əsasında məlumat verməlidir.

25 iyun 2024-cü il tarixində, IJF-in Olimpiya Təsnifat Dövrü üçün Olimpiya Dünya Reytinq Siyahısı dərc edildikdən sonra, Seçim Komissiyaları seçimi davam etdirməyə qərar verdikləri çəki dərəcələri üzrə namizəd idmançıları müəyyən etmək üçün iclas keçirəcəklər.

Müvafiq qaydada baxıldıqdan sonra Seçki Komissiyaları Olimpiya Oyunlarına İdmançıların Seçimi Komitəsi üçün təklif sənədi hazırlayacaq və Performans Direktoru bu sənədi Olimpiya Oyunlarına İdmançıların Seçimi Komitəsinin iclasında təqdim edəcək.

Ehtimal var ki, IJF Olimpiya Kvalifikasiya prosesi zamanı Qitə Kvalifikasiyası üçün uyğun olan konkret idmançını müəyyən etsin. Bu idmançı Olimpiya Oyunlarına İdmançıların Seçimi Komitəsi üçün təklif sənədinə daxil ediləcək.

Ehtimal var ki, Komanda Yarışlarına Dəvət sistemi vasitəsilə IJF tərəfindən Azərbaycana əlavə bir konkret idmançı nominasiyası ayrılsın. Bu idmançı Olimpiya Oyunlarına İdmançıların Seçimi Komitəsi üçün təklif sənədinə daxil ediləcək.

Olimpiya Oyunlarına İdmançıların Seçimi Komitəsi iclasını 26 iyun 2024-cü ildə keçirəcək. Eyni çəki dərəcəsində IJF və BOK qaydalarına əsasən OO 2024-ə vəsiqə qazanmış birdən çox idmançı varsa, Olimpiya Oyunlarına İdmançıların Seçimi Komitəsi Seçim Komissiyalarının tövsiyəsi əsasında hər bir kateqoriya üzrə müvafiq idmançı seçimi barədə qərar verəcək.

İclasdan sonra, eyni gündə, yəni 26 iyun 2024-cü ildə, Performans Direktor verilən qərarlar barədə məşqçilər heyətinə və namizədliklərinə baxılan bütün idmançılara məlumat verəcək.

Hər hansı appelyasiya müraciəti olarsa, həmin müraciət üzrə qərarın verilməsindən sonra, AJF-in Katibliyi Azərbaycanı OO 2024-də təmsil edəcək idmançılar barədə məlumatı MOK-a təqdim edəcək. Müvafiq siyahı ən gec 30 iyun 2024-cü ildə MOK-a təqdim edilməlidir.

**Apellyasiya prosesi**

İdmançılara apelyasiya şikayəti vermək üçün iyunun 28-i saat 09:00-a qədər (Bakı vaxtı ilə) vaxt verilir. Müraciətlər AJF-in Baş Katibinə yazılı surətdə və / və ya secretary@judo.az electron poçt ünvanına yenə də yazılı müraciəti göndərməklə (yazılı müraciət word və ya pdf formatında olmalı və mütləq imzalanmalıdır) edilir.

Apellyasiya şikayəti üçün yeganə əsas bu sənəddə təsvir edilən proses və prosedura əməl edilməməsi ola bilər. OO 2024-də hansı idmançının medal qazanmaq şansının daha yüksək olacağı ilə bağlı fikir ayrılığı apellyasiya şikayəti üçün səbəb kimi qəbul edilməyəcək.

Apellyasiya Şurasının iclası tələb olunarsa, bu, 29 iyun 2024-cü il tarixində təşkil ediləcək. Apellyasiya şikayəti əsaslı hesab edildikdə, Apellyasiya Şurası Olimpiya Oyunlarına İdmançıların Seçimi Komitəsindən konkret çəki kateqoriyasına yenidən baxılmasını tələb edəcək.